Respublika .- 2025.- 13 avqust (№ 168).

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında mətbuat konfransı

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) mətbuat konfransı keçirilib.**



Əvvəlcə həmkarlar ittifaqlarının fəaliyyətində son bir il ərzində tətbiq edilən yenilikləri, həyata keçirilən layihələri əks etdirən videoçarx nümayiş etdirilib. Sonra AHİK nümayəndələri tərəfindən media mənsublarına həmkarlar ittifaqlarının fəaliyyəti, əmək hüquqlarının qorunması, əməyin təhlükəsizliyi, layiqli iş şəraitinin yaradılması istiqamətində reallaşdırılan tədbirlər və sosial layihələr barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının 2025-2027-ci illər üzrə inkişaf strategiyası təsdiq edilib və hazırda strategiyanın reallaşdırılması üçün 7 prioritet, 12 fəaliyyət istiqaməti və 36 tədbiri əhatə edən Tədbirlər Planı icra olunur.

Konfederasiyada "Çağrı Mərkəzi", Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzi, həmçinin "Kurort" Turizm İnformasiya Mərkəzi fəaliyyətə başlayıb. Konfederasiyanın sanatoriya və istirahət mərkəzlərində yenidənqurma və təmir işləri aparılır, şərait yaxşılaşdırılır. Qida təminatı sahəsində də yeniliklər edilib, menyular qida təhlükəsizliyi standartlarına uyğunlaşdırılıb, sanitariya və gigiyena qaydalarına nəzarət gücləndirilib.

Sanatoriya və istirahət mərkəzlərinə yollayışların verilməsi prosesində şəffaflığın, operativliyin və əlçatanlılığın təmin olunması məqsədilə "e-ahik" Sanatoriya-Kurort Elektron Rezervasiya Sistemi istifadəyə verilib. Bu il yanvarın 1-dən iyulun 31-dək 32 minə yaxın yollayış verilib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 1,5 dəfə çoxdur.

"AHİK könüllüləri", "Layiqli Əmək Səfirləri", "Həmkardan həmkara qayğı ilə", "Sağlamlığa doğru qaç", "Görməyə dəyər" layihələri barədə məlumat verilib. Bildirilib ki, yeni layihə - "AHİK Plus" üzərində iş aparılır. Layihə sosial tərəfdaşlarla birgə rəqəmsal platforma vasitəsilə həyata keçiriləcək. "AHİK Plus" çərçivəsində həmkarlar ittifaqı üzvləri üçün bonuslar, endirimlər və xüsusi güzəştlər nəzərdə tutulur.

Tədbirdə media nümayəndələri Əmək və Sosial Münasibətlər Akademiyasında tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində aparılan işlər barədə də məlumatlandırılıb. Belə ki, Akademiyada 5 ixtisas üzrə bakalavr, 2 ixtisas üzrə magistr təhsili həyata keçirilir. Ali təhsil ocağında ittifaq üzvlərinin bilik və bacarıqlarının artırılması, ixtisasartırma kurslarının təşkili, həmçinin dövlət qurumları və özəl sektorun sifarişi əsasında təlimlərin keçirilməsi məqsədilə İxtisasartırma və Kadrların İnkişafı Mərkəzi yaradılıb.

Vurğulanıb ki, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin ailələrinə, qazilərə və müharibə iştirakçılarına dəstək məqsədilə tədbirlər həyata keçirilir, layihələr reallaşdırılır. Konfederasiyanın himayəsində olan 209 şəhid ailəsinin 378 övladına hər ay maddi yardım göstərilir. 148 şəhid ailəsinə isə alış-veriş kartları təqdim edilib. Bundan başqa, 20 Yanvar şəhidlərinin 95 ailə üzvünə birdəfəlik maddi dəstək göstərilib. Bu istiqamətdə həyata keçirilən layihələr çərçivəsində şəhid övladları üçün "Abşeron" sanatoriyasında "Texno Qəhrəmanlar" master-klas təşkil olunub.

Üzvlərin asudə vaxtının səmərəli keçirilməsi məqsədilə teatr tamaşalarına, konsert proqramlarına kollektiv baxış, həmçinin idman yarışları təşkil olunur. Keçirilmiş tədbirlər çərçivəsində həmkarlar ittifaqı üzvlərinin uşaqlarına 800 minə yaxın hədiyyə təqdim edilib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 2 dəfə çoxdur. Media nümayəndələrinə AHİK-in beynəlxalq əməkdaşlıq sahəsində görülən işlər, beynəlxalq həmkarlar ittifaqları ilə əlaqələri barədə də ətraflı məlumat verilib. Sonda jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**